Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

Türkşünaslıq və azərbaycanşünaslığın dialektiki

I YAZI

Professor Nizami Cəfərovun Azərbaycanda milli dövlətçilik təfəkkürünün formalaşmasına dair irəli sürdüyü qənaətlər, gəldiyi nəticələr elmi-nəzəri ümumiləşdirmə gücünə, mühüm ideoloji-siyasi əhəmiyyətə malikdir. O, "hər bir xalqın ən böyük əsəri onun müstəqil dövlətidir - bu və ya digər dərəcədə müstəqil dövləti (və milli dövlətçilik təfəkkürü!) olmayan xalq özünü - yaradıcılıq potensialını tam gücü ilə, bilavasitə ifadə etmək imkanlarından məhrumdur" - başlıca tezisi ilə Azərbaycanda etnokulturoloji özünüdərkdən milli-siyasi özünütəsdiqə - yəni dövlət yaratmağa doğru gedən tarixi prosesləri araşdırır.

...Ötən əsrin səksəninci illərindən bir gənc alim filologiyadakı mühafizəkarlığı yara-yara gəlirdi. Onun polemik məntiqi qüvvətləndikcə, ətrafına sirayət edib inandırdıqca, bu gəlişin təsadüfi olmadığı bəlli olurdu. Azərbaycanda gedən milli özünüdərketmə proseslərinə adekvat olaraq ictimai-elmi düşüncəni də köklü şəkildə yeniləşdirmək zərurətini sinirlərilə hiss edən vətənpərvər intellektuallar cinahındakı bu gənc bir sıra adlı-sanlı professorlarla döşdöşə gələ-gələ, həmin mühafizəkarlığın çidarladığı filologiyada sırf milli metodoloji kompleksi yaradan ən avanqard cinahdaş oldu. Bu gəncin möhkəmlənməkdə olan özünütəsdiqi elə müstəqilləşməkdə olan Azərbaycanın özünütəsdiqinə bənzəyirdi və yəqin ki, elə ondan enerji alırdı. Bu gənc alim - Nizami Cəfərov idi. 30 ildən çox bərəkətli bir zamanda çoxsaylı monoqrafiya, kitab, dərslik, mühazirə, müsahibə və məqalələrində irəli sürdüyü tezisləri sistemləşdirməklə azərbaycanşünaslıq elminin yeni nəzəri əsaslarını yaradan Nizami Cəfərov.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı və onun Mədəniyyət Komitəsinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, Azərbaycanda Atatürk Mərkəzinin müdiri, professor Nizami Cəfərovun pedaqoji, ictimai-siyasi, təşkilati və başlıcası isə elmi fəaliyyəti bu miqyaslı şəxsiyyətin çoxşaxəli yaradıcılığında özünün tam harmoniyasını tapmış olur.

Nizami Cəfərov BDU-nun filologiya fakültəsinin ümumi dilçilik kafedrasının müdiri, universitet professoru kimi professional filoloqlar, elmi rəhbər kimi alimlər yetişdirir, Azərbaycanda Atatürk Mərkəzinin müdiri, AMEA-nın müxbir üzvü, millət vəkili kimi genişmiqyaslı tədqiqatlar aparır və onlara rəhbərlik edir, Azərbaycan, Türkiyə və başqa türk dövlətləri arasında münasibətlərin möhkəmlənməsində, ölkəmizdə humanitar siyasət quruculuğunda, elm və təhsilin təşkilatlanmasında fəal iştirak edir, milli televiziya ilə ümumxalq marağına səbəb olan "Azərbaycan dili" verilişini aparır, müstəqil TV-lərdə, dövri mətbuatda həmişə aktual, qarşıya çıxan problemə aydınlıq gətirən, yönəldici fikirlərlə çıxış edir.

Azərbaycanın yeganə "qalstuksuz parlamentarisi" Nizami Cəfərov qəlbən də, fizionomiyası ilə də azad ruhlu, çərçivəsiz, intəhası, "ən yeganə sözü ən yeganə məqamında kəsə deyən" əsl türkdür. İşlədiyi, başçılıq etdiyi kollektivdə də elə xoş ovqat, mehriban, doğma münasibət, işgüzar şərait yaradır ki, quru, mexaniki hərəkətlərdən ibarət olmayan bu orqanik qurumda sərbəst fəaliyyət göstərmək, ortaya yalnız yaradıcı iş qoymaq təbii bir prosesə çevrilir.

Azərbaycanın, eləcə də türk dünyasının sayılan bilgini professor Nizami Cəfərov yüksək səviyyəli elmi araşdırmalar aparılmasının bacarıqlı təşkilatçısı olmaqla yanaşı, humanitar elmlərin ortaq metodoloji kompleksini yarada bilən və daha çox bu müstəvidə tədqiqatlar aparan ensiklopedik qabiliyyətə malik bir alim kimi də həm Azərbaycan, həm Türkiyə, həm də digər türkdilli ölkələrdə nüfuza, mötəbər sayğıya malikdir. Təsadüfi deyil ki, o, 2002-ci ildə KİTABEK-in "Hizmet ödülünə" və ondan bəri digər mükafatlara layiq görülmüşdür.

Nizami Cəfərovun elmi yaradıcılığı ədəbi-tənqidi araşdırmalardan akademik araşdırmalara qədər geniş bir kontekstə malikdir. Alimin dil və dilçiliyə, ədəbiyyat və ədəbiyyatşünaslığa, mədəniyyət və mədəniyyətşünaslığa, Azərbaycana və azərbaycanşünaslığa, türkçülük və türkologiyaya dair yazdığı əsərləri bir-birini tamamlaması və konseptuallığı ilə, ənənəvi tədqiqat üsullarına hörməti və problemlərə həmişə orijinal yanaşma texnologiyası ilə seçilir.

Professorun spesifik tədqiqat metodologiyasının əsas xüsusiyyətlərini biz belə səciyyələndirə bilərik: Tədqiqat predmetinin mahiyyətinə ən müxtəlif səviyyə və parametrlərdən yanaşıla bilir. İnduktiv və deduktiv metodlarla yanaşma bir-birini üzvi şəkildə tamamlayır. Burada tarixi-müqayisəli metodun dil, tarix və cəmiyyət hadisələrinə ən effektiv tətbiq formalarına şahid oluruq. Faktların mahiyyəti özünəməxsus keyfiyyətləri, çevrəsi və analogiyaları ilə açılır, dəyərləndirilir. Təhlil edilən hadisə, fakt, proses həm gerçəkliyi, həm də virtuallığı ilə göz önünə gətirilir. Analizin bütün detallarında kifayət qədər dərinliyə varılır və burada atomik effekt əldə edilir, yəni dərinliyə varıldıqca genişliyə çıxılır. Ümumiləşdirmənin çevrəsi böyüdükcə, bu sferaya daxil olan elementlərin sahmanı, düzəni, şəbəkələnməsi daha aydın cizgiləri ilə görünür. Analitika dərinləşdikcə faktın ümumiləşdirmə miqyası böyüyür, onun üzərində elmi düşüncə qloballaşır. Elmi təhlilin məntiqi o qədər cazibədardır ki, o ən paradoksal təzahürlərində belə tamamilə qəbuledilməz olmur və opponentini güclü polemikaya çəkə bilir, ortaya əsaslı əks arqumentasiya qoymağı tələb edir.

Nizami Cəfərovun həyat və düşüncə ritmikasının öz dramaturgiyası var. O, adajio ləngərində qalmağı da xoşlar. Ancaq onun düşüncə həyatının əsas məkanı və zamanı maestozo və skertso kükrəyişləri, coşquları, burulğalanmaları üzərində köklənib. Bu düşüncə həyatının milli ruhun əski çağlardan qaynayan gur enerjisinə qoşulub onun harmoniyasında dalğalanmaq şövqü və ərdəmliyi var. Fəqət bütün moduslarında Nizaminin improvizasiyaları həmişə güclü məntiqə, rasional təmələ söykənir.

Ümumiyyətlə, Nizami Cəfərovun elmi yaradıcılığı analitik olduğu qədər polemik keyfiyyətlərə malikdir. Yəqin daha çox buna görə onun yaradıcılığı elmi dairələrdə maraqla qarşılanır və diskussiyaya səbəb olur. Bu araşdırmalarda xüsusilə tarixi hadisələrin dinamikasına fikir verilir, proseslərin stadiallığı, mərhələliyi üzə çıxarılır. Dönüş nöqtələrinin, inkişaf məqamlarının nədən ibarət olmasına diqqət yönəldilir. Bu zaman Nizami Cəfərovun interpretasiyasında tarix - hərəkət yox, hərəkat olur. Tarixi proseslərin sivilizasiya dəyərliliyi, kulturoloji spesifikası müəyyənləşdirilir. Fakt və hadisələr statikasında kodlaşdırılır, dinamikasında isə açılır.

Buna görə də professor sanki "nədən nəyə?", "kimdən kimə?", "haradan haraya?", "hansından hansına?", "necədən necəyə?" sual-qoyuluşları ilə özünəməxsus bir şəkildə olay və ümumi proseslərin hansı şəkildə səmtlənib tendensiyalanmasını, axarlanmasını, harda batıb harda üzə çıxmasını, şaxələnib budaqlanmasını müəyyən etməyə çalışır - təqribən bu strukturmodellerdə: "genezisden tipologiyaya", "eposdan kitaba", "xaosdan kosmosa", "tanrıçılıqdan islama", "qədim dövrlərdən orta əsrlərə", "orta əsrlərdən yeni dövrə", "yeni dövrdən ən yeni dövrə", "etnocoğrafi diferensiasiyadan sosial-siyasi inteqrasiyaya", "Nizamidən Füzuliyə", "Füzulidən Vaqifə", "klassiklərdən müasirlərə", "etnokulturoloji özünüdərkdən milli-siyasi özünütəsdiqə"

Tədqiqat texnologiyasında üsul və vasitələrin bu cür kompleksləşdirilib strukturlaşdırılması ilə milli mədəniyyətimizi seçkin dinamikasında, transformasiya xarakterində duymaq və duyurmaq, onun substansial mahiyyətini dərk etmək və dərk etdirmək mümkün olur.

Professor Nizami Cəfərov bu gün milli modernləşmənin və qlobal yeniləşmənin fəal proseslərini yaşayan Azərbaycan mədəniyyətinin inkişafında təkcə rəsmi vəzifəsinə - Milli Məclisin Mədəniyyət Komitəsindəki sədrliyinə görə deyil, həm də bir yaradıcı şəxsiyyət kimi müstəsna rol oynayır. Sadəcə, Komitədəki sədrliyi bu prosesləri içərisindən duyaraq onları tezisləşdirmək və konseptuallaşdırmaqda real zəminə çevrilir. Bu təmənin əsasında isə alimin çoxillik təcrübəsi, genişmiqyaslı axtarışlarından əldə etdiyi ümumiləşdirmə keyfiyyətləri dayanır. Nizami Cəfərov hər şeydən öncə dilçidir. Dil isə mədəniyyətin özülü, onun yaşarlılığının və öz kökü üzərində daimi inkişafının təminatıdır.

Mədəniyyətin dil nüvəsindən onun bütün qatlarına çıxmaq, sosial bazasını modelləşdirmək, düşüncə məkanında genişlənmək və dərinləşmək, bütün arsenalları hərəkətə gətirmək və bununla da təbii olaraq, siyasət və diplomatiya arenasına yüksəlmək, burada öz sözünü fərdin yox, toplumun məntiqincə demək və dinlətmək mümkündür.

Azərbaycan dilçiliyi və türkologiyasında, eyni zamanda, "Azərbaycan dili" dərsliklərinin, proqram və başqa vəsaitlərin hazırlanmasında Nizami Cəfərovun böyük xidmətləri vardır. Onun namizədlik dissertasiyası Azərbaycan dilində sadə cümlənin struktur-semantik inkişafı probleminə, doktorluq dissertasiyası isə XVIII əsr Azərbaycan ədəbi dilinin öyrənilməsinə həsr olunmuşdur. Professorun dilçilik və türkologiyaya dair yazdığı əsərlərdə hər iki sahənin daha düzgün metodoloji əsaslarda öyrənilməsinə səy göstərilir. "Azərbaycan dili tarixinin metodoloji problemləri" məqaləsində XIX əsrdən başlayaraq müasir dövrümüzə qədərki dönəmdə bu problemin qoyuluşu diqqətlə araşdırılır və Azərbaycan dili tarixinin dövrləşdirilməsinin yeni variantı təqdim edilir. Ümumiyyətlə, Nizami Cəfərovun Azərbaycan dili, eləcə də türk dilləri tarixinin öyrənilməsinin metodoloji aspektləri və dövrləşdirilməsi problemi ilə bağlı irəli sürdüyü konsepsiyası elmi-nəzəri fikrimizin mühüm nailiyyətidir.

Professorun tərtib etdiyi "Türkologiyanın müasir problemləri kursunun proqramı"nda türk xalqlarının (və dillərinin) mənşəyi problemləri, türk dilləri tarixinin dövrləşdirilməsi problemi, türk dillərinin diferensiasiyası, təsnifi problemi, dil quruculuğu problemləri və ümumtürk ədəbi ortaq ünsiyyət dili problemi qoyulur və mükəmməl elmi-nəzəri sistemliliyində proqramlaşdırılır, irəli sürülən hər bir problemin elmi meyar və prinsipləri müəyyənləşdirilir.

Rahid Ulusel
Fəlsəfə elmləri doktoru, professor

Bütövlükdə dil, tarix və mədəniyyət məsələlərinə kompleks şəklində yanaşma onun elmi araşdırmalarının ən spesifik xüsusiyyətlərindəndir ki, məhz onun tətbiqi sayəsində Azərbaycan tarixi mədəniyyət düşüncəsini orqanikası və yaşarılığında hiss etmək olur.

Nizami Cəfərov Azərbaycan dilinin tarixini hansı səviyyədə tədqiq edibsə, eyni elmi-nəzəri mükəmməllikdə də Azərbaycan ədəbiyyatı tarixini araşdırıb. Onun bu sahə üzrə apardığı fundamental araşdırmaları, məqalə, esse, oçerk, məruzə, çıxış və müsahibələri Azərbaycan ədəbiyyatına onun dünəni, bu günü və gələcəyinin vəhdətində baxan, klassik dəyərlər meyarından poetik sənətə yanaşan bir nəzəriyyəçi-ədəbiyyatşünasın, tənqidçi-alimin və publisistin mövqeyini tam dolğunluğu ilə əks etdirir.

Bu əsərlər Azərbaycan ədəbiyyatının, milli bədii-estetik düşüncəmizin təkamülünü, epos təfəkkürünün əski çağlardan günümüzədək ədəbiyyatın orqanizminə necə sintez olmasını, onun qaynaq və gələnəklərini, təcrübə və yaddaşını, qonşu xalqların ədəbiyyatlarından seçilmə xüsusiyyətlərini, bəşər mədəniyyətinə hansı özəllikləri ilə qovuşmasını, öz kökü üzərində göyərə bilən sağlam təmənli modern ədəbiyyatın yaradılma zərurətini, milli ədəbiyyatımızın diferensiasiyası prosesində onun poetik zənginləşməsi, janr, üslub rəngarəngliyinə çatması imkanlarını, fərdi poetik yaradıcılıqlarla onun dürləşməsi, variasiyalaşmasını, Azərbaycan tənqidinin müasir ədəbiyyatımıza sağlam münasibətinin formalaşması gərəyini, ədəbi nəsillər nizamını, çağdaş ədəbi prosesin narahat dialektikasını, azərbaycançılıq ideologiyasının, milli dövlətçilik təfəkkürünün, siyasi məfkurənin sovet dövründən fərqli olaraq çağımızda ədəbi-bədii yaradıcılıqda necə özülləşməsini, hər bir istedadlı yazıçıya, hər bir seçkin bədii əsərə Azərbaycan ruhunun, mənəviyyatının yetirməsi, barı kimi baxmaq əxlaqını yetərincə orijinal mülahizələr və əsaslı arqumentlə araşdırır, dəyərləndirir.

Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.